# Məhəmməd Hadi yaradıcılığında milli romantizm ünsürləri

**Günel Bəxtiyar qızı İsgəndərova**
*AMEA Nizami Gəncəvi adına*
*Ədəbiyyat İnstitutu*
**E-mail:** gunel.isgan@gmail.com

**Rəyçilər:** filol.ü.f.d., dos. F.N. Abdurəhmanova,
filol.ü.f.d. M.A. Həsənli

**Açar sözlər:** romantizim, milli ideal, cəmiyyət, insan
**Ключевые слова:** романтизм, национальный идеал, общество, человек
**Key words:** romanticism, national ideal, society, human

XX əsrin əvvəllərində ədəbi cərəyan kimi formalaşan romantizm cərəyanının ən görkəmli nümayəndələrindən biri də Məhəmməd Hadidir. Fəlsəfi, subyektiv idealizm düşüncələri ilə seçilən M. Hadi yaradıcılığında azadlıqla məhrumiyyət, millətlə Vətən, həqiqətlə xəyal, cəhalətlə maarif vəhdət şəklində işlənmişdir. Əsasən ictimai məzmunlu əsərlər yazan şairin yaradıcılığının proloqu isə azadlıq-hürriyyət-*pəriyi-vicdan*dır. Milli romantizm ünsürü olan hürriyyət bu mənada tək işlənmir, bununla yanaşı vətən, millət, əməl (inqilab), din, sədaqət, *başqalaşma* və maarif kimi rəmz tipologiyaları da işlənmişdir. Deməli, Məhəmməd Hadi romantizmində millilik həm mövzu, həm də obraz şəklində təhlil edilməlidir. Çünki, romantizmin təməlində insan ruhunun açılmamış tərəfləri ələ alınır. Həm həqiqət və xəyali, həm keçmiş və gələcək, həm əməl və düşüncə...

Kamran Əliyev romantizmi təhlil edərkən fərd və millət azadlığı problemini, romantizmdə insanın bir fərd və millət kimi azadlığı ideyasının qoyuluşu məsələsinə konkret prizmadan yanaşmışdır. Romantikləri azadlığı milli və mənəvi azadlıq kimi başa düşdüyünü, bu idrakın özündə də gerçəklik və mövcud cəmiyyət, onun eybəcərlikləri və bütün bunlara qarşı etiraz, üsyan başlıca amil kimi qiymətləndirmişdir (1, s. 41). Romantizmdə millət və milli azadlıq bir kökdən gələn və müştərək tarixi keçmişi yaşadan insan cəmiyyətidir. Primordializmdə isə millilik iki mənanı ifadə edir. Biri *əvvəldən var olan*, digəri isə *ilk yaradılan.* Bir sistem şəklində ələ alsaq, millilik "təbii", "bioloji" və "mədəni" olmaqla üç yerə ayrıldığını görə bilərik. Mədəni baxış bucağında milləti *başqaların*dan ayırdığı düşünülən din, dil və ortaq keçmiş kimi xüsusiyyətlər romantizmin əsas fərqləndirən cəhətləri olmuşdur. Məhəmməd Hadi də yaradıcılığında *başqalarını* xüsusi vurğu ilə diqqət mərkəzinə çəkir. Burada əsas məqsəd etnik cəmiyyət kimi ayırıcı xüsusiyyətlər deyil, şərq və qərb ayrılığı, cəhalət və mövhumatdır. Tərəqqiyi-sənaye şeirində bu nöqtəyə diqqət çəkən şair şərqdəki geriliyi cəhalətdə, qərbdəki inkişafı isə maarifdə görür.

Açıldı babi - təməddün yədi – sənaye ilə,
Müzəyyən oldu cahan hilyəyi – bədaye ilə.
Miləl müxabirə fikrindədir kəvakib ilə,
Biz isə əlləşirik, ah, kim məvakib ilə. (2, s. 47)

Mədəniyyət qapısının sənaye inkişafının köməkliyi ilə açılmasını vurğulayan Hadi, Fransadakı sənaye inqilabının əhəmiyyətinə diqqət çəkərək cəmiyyətin oyanışına can atır. Qərb ar-

tıq istəklərinə yetmiş, bizim isə xurafat ixtira edərək həsədxanaya həbs olunmuşuq.

Artıq dil, din və tarixi keçmiş birliyi primordializmin əsrarını açmır. Romantizm cərəyanını da bu mənalar çərçivəsində məhdudlaşdırmaq hesab edirik ki, düzgün olmaz. Çünki, romantizm iqtisadi, siyasi və sosial güclərin təsiri ilə ortaya çıxmış fəlsəfi cərəyandır. Təsadüfi deyil ki, Dədə Qorqud dastanında, Nizami Gəncəvi "Xəmsə"sində, Füzuli lirikasında, Xəqani yaradıcılığında lirik- romantik motivlər spesifik metodlarla qarşımıza çıxır.

İ.Berlin "Romantikliyin kökləri" əsərində romantizmi təhlil edərkən insanı tarixi fakt kimi mərkəzə alır. Sosial baxımdan insanların bir-birinə necə bənzədiyini, hansı məqsədlərə qulluq etdiyini, məqsədinə çatmaq üçün hansı vasitələrdən istifadə edib-etməməsini göstərməyə çalışmışdır (3, s. 48). Beləliklə, fərdi düşüncə məhsulunu daha geniş mənada bir millət, bir dövlət kimi təhlil edir. Bu mənada romantizmin fərqli ölkələrdə fərqli zamanlarda, ancaq oxşar hadisələrin təsiri ilə cücərmişdir. Romantizmin köklərində isə *jus soli*, yəni siyasi və torpağa bağlı güclərin təsiri daha qüvvətlidir.

Brubaker bu məqama diqqət çəkərək romantik dövlət anlayışının özəyində mədəni-etik anlayışın yatdığını vurğulamışdır (4, s. 32). Məhəmməd Hadi yaradıcılığında da milli ideal anlayışının sadəcə eyni dildə danışmaq, eyni torpaqda yaşamaq, milli məktəb, milli mətbuat, milli ədəbiyyat anlayışından ibarət olmadığını açıq-aşkar görmək mümkündür. Şairin Türkiyə və Cənubi Azərbaycan hürriyyətinə həsr olunmuş "İranın hürriyyət qəhrəmanlarına", "Ey mütribeyi dövr təməddün", "Şərareyi ruh", "Osmanlıların inqilabi- əxiri və hürriyyət əsgərlərinin şanlı zəfəri" adlı şeirlərində bu aşkarlıq özünü göstərir, milli ideal məhdud çərçivədə qalmır. Necə ki, Alman milli ideologiyasının məhv edici və zərər verici xüsusiyyətlər daşıyırdısa, Azərbaycanın tərəqqisinə qarşı yönəlmiş feodal ideologiyalar da M. Hadi yaradıcılığında tənqid edilirdi. Bəlkə buna görədir ki, M. Hadinin romantik yaradıcılığında ictimai məzmunlu şeirlər, saf məhəbbət və təbiət təsvirləri də xalqın mənəvi ehtiyaclarına qulluq edir. Klassik şeir ənənəsi üslubunda romantik ovqata və poetikaya uyğun olaraq ictimai mətləbə və maarifə xidmət edir. Zülmə, haqsızlığa, cəhalətə qarşı güclü bir etiraz hisləri özünü göstərir.

Qaldıq əlində bir sürü ərbabi-vəhşətin,
Olduq əsiri pəncəyi-qəhrü müsibətin!
Hər səmtdən atılmadadır tiri-cangüdaz,
Yoxdur önün alan bu xədəngi-fəlakətin! (2, s. 106)

Hürriyyət axtarışında olan şairin iztirabları klassik ənənədən sıyrılaraq yeni müstəvidə; vətən, millət, əməl şəklində qarşımıza çıxır. Birinci şəxsin cəmində xitab edərək fərdin milli düşüncəsini yüksəltməyə çalışır. Üsyan etirazları Rəbbin özünədək çatdırılır. Bu üsyankar əhval-ruhiyyəli monoloqda millətin qurtuluşu üçün onun fərdlərinin birləşməsi tövsiyə olunur (5, 58). Buradakı monoloq şairin qarşılaşdığı acizanə vəziyyətinin proqramlaşdığı nitqidir. Əlverişli şərait və psixoloji vəziyyət seçən şair, monoloji çıxışını hər hansı bir obraza və ya oxucuya deyil, bir başa cəmiyyətin özünə yönləndirir. İstiqamətləndirici monoloqu ilə cəmiyyəti konkret mövzu ətrafında birləşdirməyə çalışır. Bu mənada Məhəmməd Hadi yaradıcılığında hürriyyət və millət motivi həm də sintaktik funksiya daşıyır. Şeirin ahəngdarlığını artırır, fikri qüvvətləndirir. Yeni forma və məzmuna bürünür. Şair vurğulamaq istədiyi mövzunun konkret cəhətlərini ön plana çəkərək məzmuna müvafiq forma verir. Beləliklə, məzmunla formanı bir-birilə əlaqələndirərək yeni obraz yaradır. Hürriyyət, inqılab, istiqlal və əməli yeni priyom və üsullarla zənginləşdirir, söz sənətinin novatorluğunu təsdiqləyir. M. Hadi yaradıcılığında söz mənadan aslıdır. Məna məzmunu, söz isə öz növbəsində formanı ifadə edir. Klassik ənənənin

forma və məzmunundan sıyrılaraq dövrün milli idealını mənalandırır. Orta əsr ədəbiyyatındakı mistik məzmunlu mərsiyə və müsibətnamələrin əvəzinə, Hadinin dünyəvi kədəri mənalandıran "Təranəyi-qəmpərvəranə", "Dünya sahəyi-qəmdir" və s. kimi qəsidələrində lirik "mən" in dilindən deyilsə də, bu şeirlərdə "özündən daha qabaq, daha artıq xalqını, vətənini düşünən namuslu vətəndaşın", Hadinin öz sözləri ilə desək, "dünyada bədbəxtanə yaşayan arifin" kədərli düşüncələri ümumiləşdirilmişdir (2, s. 11).

Ümumiyyətlə, M. Hadi yaradıcılığında hürriyyət motivi həm aşiqdir, həm sevgili yar, həm anadır, həm övlad, həm fərddir, həm cəmiyyət. Bütün insani xüsusiyyətlərin bir məfhuma yükləndiyi predment-obrazdır. Lirik-psixoloji ovqatı oxucunun təxəyyülünə və təsəvvürünə nüfuz etdirərək hürriyyətin parlaq şüalarını ülviləşdirir.

Hürriyyət, o şahin deyil a hər kəsə mail,
Seyd etdiyi ərbabi-fəzaildir, əfazil.
Alçaqları seyd etməyə amadə deyildir,
Ülviyyətə məftundur, üftadə deyildir. (2, 405)

Yeni obraza bürünən hürriyyət, hər kəsə meyl etməyən şahindir. O şahin ki, ancaq fəzilət ərbabına sahib, ülviyyətə vurğundur. Bu gerçəklik detalı misrada ikiqat iş görür. Romantik şahinin də ucalıqda uçmasına inamı artırır, o biri tərəfdən uçmaq, ülviyyət məkanı adətən romantik xəyalın qərar tutduğu məkandır. O məkanda belə, ovlamağa o, ancaq özü kimi "dilbər dil" arayır (5, s. 19).

Milli romantik ünsürün əsas qaynağı "ümid"dir. Ümid müştərək amalın yox olub, can sıxıntılarının baş qaldırdığı zaman fərdin kimə və hara müraciət etməli? Nəyə sığınmalı? Suallarına cavabdır. Qaba və amansız dövrdə millətin müsibət içində yaşamasının *gotik* çalarlara bürünməsidir. Gotik fiction qorxu, ölüm və zaman kimi motivləri əhatə edən romantik ədəbiyyat məhsuludur və bizi özümüzdən daha üst səviyyəyə aparır. Yəni, çirkinlik içində gözəlliyə, əzab içində ümidə yol açır. Məhəmməd Hadinin yaradıcılığındakı ümid də bu mənada gotik fictiondur. Mövcud ictimai reallıqla barışmayan şair nəzərlərini daim işıqlı gələcəyə dikir. Qaranlığa işıq gətirir, cəhaləti maarifləndirir, "vicdan pərisi"ni müstəmləkə altından xilas edir, qorxu və can sıxıntısını ümid seli ilə birləşdirir. İctimai azadlığı xüsusi həssaslıqla izləyən şair, poetik nikbinliklə hüznün üzərinə örpək salır, hürriyyətin əbədiliyini yeni çalarlarla, özünəməxsus məcazlarla vəsf edir. Sanki, poetik tapıntı kimi təşbeh və bənzətmələrlə ümidin estetik mənasını açmağa çalışır. Ümidi "şən afət" deyib vəsf edən şair, romantizmdə xüsusi yeri olan bədii təsvir və ifadə vasitələrini poetik cazibədarlıqla yeni mənada və ictimai məzmunda təqdir edir. Yeni məna çalarları və məzmunca yeni ifadələr yaradaraq bədii dili zənginləşdirir, onu vəcdə gətirir.

Özəyində coşqunluq yatan romantizmdə vətən, millət, inqilab və hürriyyət milli ideologiyanın kulminasiya nöqtəsidir. Fərdin mənəviyyatında oyatdığı təlatümlərin təsviridir. Bu coşqunluğun dili hüzünlü, ahəngi iniltilidir. Şairin dili ilə desək "ətşan"dır. Bu ətşanlığın səbəbi isə cəhalətdə yatır. Mürəkkəb məcazların köməyi ilə zəmanənin və cəmiyyətin problemlərini dəf edərək fəlsəfi dərinliklərlə kamilliyə çağırış edir. Təzadlar içində vətənin halına ağılar söyləyərək romantik-fəlsəfi monoloqlar təsiri bağışlayır, gur səslə vətəndaşları xilasa-ayıqlığa çağırır. Deməli milli ideologiyanın ayaqda durması üçün maariflənmək əsas şərtdir. "Maarif olmasa, qabilmi incilayi-vətən" deyərək dərmansız olan millətin vətənə imdad olmayacağı həqiqətini açır. Təsadüfi deyil ki, öz fərdi üslubu ilə seçilən sənətkar romantik-publisistik üslubda yazıb-yaratmışdır. Maarif millətin mükəmməlliyidir, istiqbalıdır, taleyidir, istiqlalıdır.

Romantiklərə görə hər bir sahədə maarif insanlığın şəfa dərmanı, bütün qapıların açarıdır. Maarifdə intibah isə məktəbdən keçir.

Övladi-vətən etmək üçün bizdə təali
Məktəblər açıb kəsb edəlim elmü kəmali! (2, s. 21)

Vətən övladının tərəqqisinin elm, kamal sahibi olmaqda görən romantik sənətkar, əslində özü bir müəllimdir. Ədəbi yaradıcılığında dərin fəlsəfi-estetik izlər buraxaraq Məmməd Cəfərin də qeyd etdiyi kimi cəmiyyət problemlərinin həllində ağlın qüvvəsinə, maarifçilik ideallarına arxalanaraq yaradıcılıq metodunun əsas məfkurəvi fəlsəfi prinsiplərindən yararlanmışdır (6, s. 10). Millətin maarif-lənməsində digər milli romantizm ünsürü kimi dini-islam aspektinə də üz tutur. Maariflənməyin "əmri- peyğəmbər" olduğunu cəhalətin əsil səbəbinin Quranı bilməməkdə yatdığını nəzərə çatdırır. İnsaniyyət və islamiyyət nöqteyi-nəzərindən bəyənilmiş cəhətlərin mübhəm qalmasına boyun əymək, zülmün maarifi məhv edən, vətəni isə ətşan edən vasitə bilir.

**Məqalənin aktuallığı.** M. Hadi yaradıcılığında azadlıqla məhrumiyyət, millətlə vətən, dinlə ümid, cəhalətlə maarif vəhtəd şəklində işlənərək Azərbaycan ədəbiyyatının milli romantik ünsürlərini yeni müstəviyə qaldırmışdır. Özəyində coşqunluq yatan romantizmdə vətən, millət, inqilab və hürriyyət milli ideologiyanın kulminasiya nöqtəsidir. Bu coşqunluğun dili hüzünlü, ahəngi iniltilidir. Milli ideologiyanın ayaqda durması üçün maariflənmək əsas şərtdir. Millətin maariflənməsində milli romantizm ünsürü kimi dini-islam aspekti dayanır. Müəllim mövqeyindən çıxış edərək yeni bir kədər lirikası meydana gətirir. Yeni məna çalarları və məzmunca yeni ifadələr yaradaraq bədii dili zənginləşdirir, onu cuşa gətirir.

**Məqalənin elmi yeniliyi.** Məhəmməd Hadi yaradıcılığının "milli romantik ünsürlər" kontekstində təhlil edilməsi ona yeni məna çalarları qazandırmışdır. Yeni romantik obrazların canlanması: hürriyyət, istiqlal, əməl, maarif, ümid və dinin yeni priyom və üsullarla təhlili Məhəmməd Hadinin novatorluğunu təsdiqləyir, ədəbi nümunələrilə yazı və həyat arasındakı əlaqələrin tərcüməsi kimi çıxış edir. Bədii təsvir və ifadələr vasitəsilə milli romantik ünsürlər ədəbiyyatda mövzu obyektinə çevrilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə doktorantların, magistr və bakalavrların elmi axtarışının qaynaqlarına çevrilə bilər.

## Ədəbiyyat

1. Əbülfəz Əzmli, Romantizmdən eposa: tədqiqin Kamran Əliyev aydınlığı, Bakı, Elm və təhsil, 2013.
2. Məhəmməd Hadi, Əsərləri, Birinci cild, Bakı, "Elm", 2020.
3. İsaiah Berlin, Romantikliyin kökləri, İstanbul, KYK yanınları, 2010.
4. Roger Brubaker, Fransa və Almanya'da Vatandaşlık ve Ulus Ruhu, Dost Kitabevi yayınları, Ankara, 2009.
5. Vəli Osmanlı, Məhəmməd Hadinin romantizmi, Bakı, "Elm", 2006.
6. Məmməd Cəfərov, Seçilmiş əsərləri, II cild, Bakı, "Çinar-Çap", 2003.

**Г. Б. Искандарова**

## Элементы национального романтизма в творчестве Мохаммеда Хади


### Резюме

В творчестве М. Хади свобода, нация, родина, религия, надежда, просвещение используются в форме единства и подняли на новый уровень национальные романтические элементы азербайджанской литературы. Родина, нация, революция и свобода составляют кульминацию национальной идеологии в том романтизме, который лежит в ее основе. С точки зрения учителя, это создает новую грустную лирику. Он обогащает художественный язык, создавая новые смысловые оттенки и новые выражения в содержании.


**G.B. İsgandarova**

## Elements of national romanticism in the works of Mohammad Hadi


### Summary

In M. Hadi's work, freedom, nation, homeland, religion, hope, enlightenment are used in the form of unity and raised the national romantic elements of Azerbaijani literature to a new level. Homeland, nation, revolution and freedom are at the culmination of the national ideology in the romanticism that is at its core. From the teacher's point of view, it creates a new sad lyric. It enriches the artistic language by creating new shades of meaning and new expressions in the content.


**Redaksiyaya daxil olub:** 24.08.2021